AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**HÜSEYN MƏMMƏD OĞLU PAŞAYEV**

# XIX ƏSRİN İKİNCİ YARISI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA VƏ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFI

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Slavyan ölkələri tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **T.T.VƏLİYEV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **F.N.MƏMMƏDOV**

Tarix üzrə fəlsəfə doktoru **A.Ş.ŞAHMURADOV**

**Aparıcı müəssisə:** Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsi

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış 5503.02 – "Vətən tarixi" ixtisası üzrə D.02.161 saylı Dissertasiya Şurasının "19___" _06____ 2015-ci il tarixli iclasında, saat "___"-da keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küç., 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"___________2015-ci ildə göndərilmişdir

**Dissertasiya Şurasının elmi katibi,**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

# I.DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Problemin elmi aktuallığı.** Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonrakı dövrdə Şimali Azərbaycan iqtisadiyyatında baş verən dəyişikliklərdə çar hökuməti orqanları və rus sahibkarlarının rolu, XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində çarizmin yeritdiyi iqtisadi siyasətin Azərbaycan üçün konkret müsbət və mənfi nəticələri tarixşünaslıqda xüsusi tədqiqat obyekti olmaması ilə diqqəti cəlb edir. Belə ki, sovet dövründə yazılmış əsərlərdə Rusiya – Azərbaycan iqtisadi əlaqələrində çarizmin müstəmləkəçi siyasətindən daha çox iqtisadi təsirin obyektiv olaraq doğurduğu müsbət yeniliklərin qabardılması diqqəti cəlb edir. Müstəqillik illərində yazılmış əsərlərdə isə əksinə, Şimali Azərbaycanın Rusiya imperiyası hakimiyyəti altında olduğu dövr əsasən mənfi aspektdə qiymətləndirilmişdir. Ümummilli lider Heydər Əliyevin 1997-ci ilin yanvarında Azərbaycan Milli Elmlər Akademiyasında görüşündə xüsusi olaraq qeyd etdiyi kimi, "Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz. Siz də, bizim o yaşlı tarixçilərimiz də, 1970-ci illərdən fəallıq göstərən tarixçilərimiz də onlardan istifadə edirdilər. Ona görə də biz onların hamısını o ideologiyanın konsepsiyasında bizə verilən kimi əks etdirirdik. Sonra nə oldu? 1990-cı ildən başladılar ki, hamısı pisdir. Yəni o kommunist ideologiyasının vaxtında buraxılan səhvlər indi də təkrar edilir. Həmin səhvlər o vaxtlar bir istiqamətdə, indi başqa istiqamətdə buraxılır. Belə subyektivliyə və tariximizin bundan sonra da təhrif edilməsinə yol verməmək üçün mən bir neçə dəfə təklif verdim ki, XX əsrin tarixi necə var, elə də yazılsın. Amma bu son günlər … fikirləşirdim ki, təkcə XX əsrin tarixi yazılsa, bəlkə də bu, az olar…Götürək XIX əsrlə XX əsri yazaq. Bunlar bizim üçün həm yaxındır, həm məlumat, arxiv materialı çoxdur, həm də onlar çox işlənilibdir. Amma harada hansı səhv olubsa, gətirib düzəldək və yeni səhvlərə də yol verməyək. Mən bu barədə daha geniş danışmaq istəmirəm, bunun əhəmiyyəti məlumdur. Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX – XX əsrlər tarixinin yazılmasıdır"[1]. Bu baxımdan XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanda sənaye, kənd təsərrüfatı və nəqliyyatın tarixi-iqtisadi problemlərinin bir çox məsələlərinin araşdırılması və obyektiv dəyərləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. VIII kitab. Bakı, 1998, s.367-369.

Ona görə də "XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Rusiya və Azərbaycan iqtisadiyyatının inkişafı" mövzusunun ayrıca bir elmi problem kimi kompleks şəkildə tədqiq edilməsi Vətən tarixşünaslığında mövcud olan boşluğu doldurmağa xidmət edir. Biz ilk mənbələr və mövcud tarixi ədəbiyyat əsasında Rusiyanın Şimali Azərbaycanda iqtisadiyyatın başlıca sahələrinin yaranması və inkişafına təsiri problemini araşdırmağa səy göstərmişik.

Bildiyimiz kimi, Rusiya hakim dairələri Qafqaz regionunda, o cümlədən də Şimali Azərbaycanda öz mövqelərini möhkəmləndirmək, onun əlverişli hərbi-strateji və geosiyasi imkanlarından istifadə etmək, təbii sərvətlərindən maksimum yararlanmaq üçün addımlar atmağa başladılar. XIX əsrin 30-cu illərindən etibarən Mərkəzi Rusiyada inkişaf etməkdə olan toxuculuq sənayesinin tələbatının ödənilməsi üçün ipəkçiliyin və qızılboya istehsalının artırılması, regionda saxlanılan çoxsaylı rus ordusunun ərzaqla təmin edilməsi üçün taxıl əkinlərinin genişləndirilməsi baş verdi. Ölkəni iqtisadi cəhətdən mənimsəmək üçün çarizmin həyata keçirdiyi tədbirlər, müstəmləkə siyasətinin həyata keçirilməsindən asılı olmayaraq, Şimali Azərbaycanın iqtisadiyyatının inkişafına bütövlükdə müsbət təsir göstərdi.

XIX əsrin 60-70-ci illərində Rusiyada həyata keçirilən burjua islahatları Azərbaycan iqtisadiyyatına ciddi təsir göstərdi, iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, milli burjuaziya və proletariatın təşəkkülünə, millətin formalaşmasına güclü təkan verdi. Müstəmləkə əsarəti Azərbaycanda azad kapital bazarının formalaşmasına və sənaye məhsulu istehsalı sahələrinin inkişafına imkan verməsə də, burjua islahatları dağ-mədən, yüngül və yeyinti sənaye sahələrinin, eləcə də kənd təsərrüfatının və nəqliyyatın inkişafına yol açdı. Bu dövrdə Şimali Azərbaycanın kənd təsərrüfatında əmtəə-pul münasibətlərinin inkişafı daha da sürətləndi. Xüsusən də bilavasitə Rusiya bazarı ilə sıx bağlı olan pambıqçılıq, ipəkçilik, tütünçülük sahələrində bu inkişaf daha çox nəzərə çarpırdı.

Tədqiq edilən dövrdə Şimali Azərbaycanda inkişaf etməkdə olan bəzi istehsal sahələri həm də Rusiyanın özündə yeni sənaye sahələrinin yaranmasına, xüsusən də toxuculuq sənayesinin sürətli inkişafına səbəb oldu. Başqa sözlə desək, təsir bir növ qarşılıqlı olmuşdur.

Öyrənilən dövrdə Şimali Azərbaycanda istehsal edilmiş kənd təsərrüfatı və sənaye məhsulları Rusiyanın daxili quberniyalarına ixrac edilir və qismən də ümumrusiya bazarı vasitəsilə Qərbi Avropanın və bütövlükdə dünyanın satış bazarlarına çıxarılırdı. Tədqiq edilən mövzu beynəlxalq iqtisadi əlaqələr sahəsindəki tarixi təcrübənin araşdırılması baxımından elmi-praktiki aktuallıq kəsb edir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xarici ölkələrin, eləcə də Rusiya Federasiyasına məxsus iri şirkətlərin Azərbaycan

iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymaq məqsədilə bağladıqları çoxsaylı müqavilələr və onların reallaşdırılması, həmin şirkətlərin ölkəyə hansı məqsədlə gəlmələrindən asılı olmayaraq, iqtisadiyyatın çanlanmasına və inkişafına geniş imkanlar açmışdır. Bu şirkətlər vasitəsilə Azərbaycanın xammal və sənaye məhsulları xarici bazarlara çıxış əldə etmişdir. Heç şübhə yoxdur ki, çar Rusiyasının hakimiyyəti zamanında və müasir dövrdə baş verən hadisələrin oxşarlığı və keçmişlə necə deyərlər, bir növ səsləşməsi də mövzunun böyük aktuallıq kəsb etdiyini göstərir. Müasir geosiyasi və geoiqtisadi şəraitin xarakterini, Azərbaycan Respublikasının dünya ölkələri ilə, o cümlədən Rusiya Federasiyası ilə qarşılıqlı-faydalı iqtisadi-ticarət əlaqələrinin inkişaf perspektivini nəzərə aldıqda bəhs edilən problemin dərindən araşdırılması zərurəti ortaya çıxır.

Bütün yuxarıda qeyd edilənlər "XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Rusiya və Şimali Azərbaycan iqtisadiyyatının inkişafı" mövzusunun həm tarixi-elmi, həm də siyasi-elmi aktuallıq daşıdığını göstərir.

**Problemin öyrənilmə səviyyəsi.** Tədqiqat obyekti kimi seçdiyimiz "XIX əsrin ikinçi yarısı – XX əsrin əvvəllərində Rusiya və Azərbaycan iqtisadiyyatının inkişafı" problemi tarixşünaslıqda xüsusi olaraq araşdırılmasa da, ayrı-ayrı tarixi əsərlərdə mövzuya bu və ya digər dərəcədə toxunulmuşdur.

1917-ci ilin Fevral inqilabına qədərki dövrdə Şimali Azərbaycanın dağ-mədən, yüngül və yeyinti sənaye sahələrinə, kənd təsərrüfatına, nəqliyyatına dair çoxlu əsərlər[1] çap edilmişdir.

---

[1] Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894; Маневский А.Н. Обзор фабрично-заводской промышленности в Елисаветпольской губернии в 1909 г. Елисаветполь, 1909; Мейснер В.В. Сельдяной промысел на Кавказском побережье Каспийского моря. СПб., 1914; Менделеев Д.И. Нефтяная промышленность в Северо Американском штате Пенсильвании и на Кавказе. Сочинения, т. X, Л.-М., Изд-во АН СССР, 1949, с.17-244; Yenə onun. Где строить нефтяные заводы. Соч., т. X, Л.-М., Изд-во АН СССР, 1949, с.249-339; Yenə onun. Мнение о Баку-Батумском нефтепроводе. Соч., т.X, Л.-М., Изд-во АН СССР, 1949, с.507-511; Его же. О нефтепроводе и мерах к развитию нефтяного дела в России. Соч, т.X, Л.-М., Изд-во АН СССР, 1949, с.513-529; Першке Л.Л и С.Л. Русская нефтяная промышленность, ее развитие и современное положение в статистических данных. Тифлис, 1913; Рагозин В. Нефть и нефтяная промышленность. СПб., 1884; Симонович В. Нефть и нефтяная промышленность в России. СПб., 1909; Старцев Г.Е. Бакинская нефтяная промышленность. Историко-статистический очерк. Баку, 1901; Бовыкин В. И. Формирование финансового капитала в

Sovet hakimiyyətinin ilk dövründə, xüsusən XX əsrin 30-40-cı illərində rus tarixçi və iqtisadçılarından S.A.Anuçin və N.N.Kukinin[1], A.Breytermanın[2], K.A.Pajitnovun[3] və başqalarının çap etdirdikləri əsərlərində Azərbaycan sənaye sahələrinin vəziyyəti, Rusiyanın dövlət orqanlarının və xüsusi sahibkarların ayrı-ayrı sənaye sahələrinin inkişafına təsiri məsələlərinə də diqqət yetirilmişdir.

Bu müəlliflərin adı çəkilən əsərlərində bilavasitə Azərbaycanın ipək emalı və dağ-mədən sənayesi tarixi tədqiq olunmuşdur. A.Breytermanın bu gün də öz əhəmiyyətini saxlayan fundamental monoqrafiyasının üçüncü cildində Gədəbəy mis zavodunun da tarixinə toxunulmuşdur. Əlbəttə, müəllifin əsas məqsədi Rusiyanın əlvan metallurgiya tarixini öyrənmək olduğuna görə, burada bizi maraqlandıran məsələlərin hamısına dair məlumatlar kifayət qədər deyildir.

1950-ci illərdən başlayaraq ittifaq miqyasında iqtisadiyyatın müxtəlif sahələrinə həsr edilmiş çoxsaylı tədqiqat əsərlərində Azərbaycanın da sənaye həyatı, xüsusən neft sənayesi tarixinin müxtəlif məsələləri işıqlandırılmışdır.

---

России. М., 1984; Бородин Н.А. Очерк сельдяного промысла по западному побережью Каспия. СПб., 1904; Литвинов-Фалинский В.П. Шелковая промышленность России. СПб.,1902; Мейснер В.В. Сельдяной промысел на Кавказском побережье Каспийского моря. СПб., 1914; Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа. Тифлис, 1900. Хелимский Г.Г. О солодковом корне и экстракте его лакрице на Кавказе. М., 1911; Петрович П. Сельскохозяйственный обзор по Закавказью, 1913 г. Тифлис, 1914; Его же. Хлопководство в Закавказье. Тифлис, 1912; Сегаль И.Л. Солодковый корень и его промышленность в Елисаветпольской губернии. Тифлис, 1893; Yenə onun. Хлопководство в Елисаветпольской губернии. – Кавказское сельское хозяйство, № 290, 29 июня 1899 г., с. 478-479;Yenə onun. Елизаветпольская губерния. Впечатления и воспоминания. Тифлис, 1902;Yenə onun. Сборник сведений о Елисаветпольской губернии. Тифлис, 1902. Тимофеев С.Н. Статистика хлопководства в Закавказском крае за 1913 год. Тифлис, 1915, VI; Щербачев В.С. Обзор табаководства в России (Бессарабия, Кубанская область, Закавказье). СПб., 1889; Березин П.П. Путешествие по Дагестану и Закавказью, ч. 1-3. Казань, 1849. Фон-Гребнер А.В. Торговые дороги Закавказья. СПб., 1896; Шавров Н.А. Русский путь в Закавказье. СПб., 1883.

[1] Анучин С.А. и Кукин Н.Н. Шелковая промышленность СССР, М., 1930.

[2] Брейтерман А. Медная промышленность СССР и мировой рынок. Т.3, Л., 1930.

[3] Пажитнов К.А. Очерки по истории бакинской нефтедобываюшей промышленности (от конца XVIII в. до Великой Октябрьской революции). М.-Л., 1940.

Onlardan P.A.Xromov[1], S.M.Lisiçkin[2], P.V.Volobuyev[3], V.İ.Bovıkin[4], S.P.Serqiyenko[5], A.A.Fursenko[6], V.A.Nardova[7], İ.A.Dyakonova[8], A.P.Poqrebinski[9] və digər müəlliflərin əsərlərini göstərmək olar. Bu monoqrafiyaların bir hissəsində məhz Azərbaycan neft sənayesindən, bu sahədə iri inhisarların fəaliyyətindən bəhs olunur. Bəzi əsərlərdə, xüsusən V.S.Dyakin[10], N.L.Nanitaşvili[11] və b. müəlliflərin monoqrafiyalarında bir sıra sənaye sahələrinə, o cümlədən ölkəmizin mis sənayesinə qoyulmuş kapitalın mənsubiyyətinin izahında ciddi səhvə yol verilmişdir. Bu barədə sonrakı dövrlərdə nəşr olunmuş tədqiqatlarda ilk mənbələrə əsaslanaraq Gədəbəy mis sənayesində həqiqətən sırf alman kapitalının deyil, şərikli (rus-alman) kapitalının mövcudluğu sübut edilmişdir[12] .

---

[1] Хромов П.А. Экономическая история СССР. Период промышленного и монополистического капитализма в России. М., 1982; Хромов П.А. Экономическое развитие России в XIX – XX вв. М., 1950.

[2] Лисичкин С.М. Очерк по истории развития отечественной нефтяной промышленности. М., 1954.

[3] Волобуев П.В. Из истории монополизации нефтяной промышленности дореволюционной России (1903-1914) / «Исторические записки», т. 52, М., 1955.

[4] Бобынин Н. Шелководство. – Экспортные товары Закавказья и условия их производства и добывания, ч. II, Тифлис: издание Грузинского Центрального Статистического Управления, 1926, с.41-52; Бовыкин В.И. Зарождение финансового капитала в России. М., 1967.

[5] Сергиенко С. Очерк развития химии и переработки нефти. М., 1955.

[6] Фурсенко А.А. Нефтяные тресты и мировая политика, 1880-е годы - 1918 г. М.-Л., 1965;Yenə onun. Первый нефтяной экспортный синдикат в России (1893-1897 гг.). // Монополии и иностранный капитал в России, М.-Л., 1962, с. 4-58.

[7] Нардова В.А. Начало монополизации нефтяной промышленности России 1880-1890-е годы. Л., 1974.

[8] Дьяконова И.А. Нобеловская корпорация в России. М., 1980.

[9] Погребинский А.П. Государственно-монополистический капитализм в России. М., 1959;Yenə onun. Государственные финансы царской России в эпоху империализма. М., 1959; Yenə onun. Очерки истории финансов дореволюционной России (XIX-XX вв.). М., 1954; Yenə onun. Строительство железнодорожных дорог в пореформенной России и финансовая политика царизма (60-90-е годы XIX в.). - Исторические записки, т.47, М., 1954.

[10] Дякин В.С. Германские капиталы в России (электроиндустрия и электрический транспорт). Л., 1971.

[11] Наниташвили Н.Л. Германский капитал в Закавказье. Деятельность фирмы «Сименс и Гальске», 1860-1917. Тбилиси, 1982.

[12] Vəliyev T.T. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987; Azərbaycan tarixi üzrə qaynaqlar (S.S.Əliyarov və Y.M.Mahmudovun

Rusiya imperiyası miqyasında toxuculuq sənayesinin inkişafı tarixinə V.Y.Laveriçevin[1] və K.A.Pajitnovun[2] həsr etdikləri monoqrafiyalarında regionlarda, o cümlədən Cənubi Qafqazda pambıq-parça istehsalı, Mərkəzi sənaye rayonunun mahlıcla təmin olunmasında Şimali Azərbaycanın rolu məsələləri təhlil edilmişdir.

Bilavasitə rus və əcnəbi kapital əsasında yaradılmış iri inhisarların, o cümlədən bank inhisarlarının Bakı neft rayonunda sənaye sahələrinin çoşğun inkişafının əsasını təşkil etməsi ilə bağlı problemlərin məharətlə araşdırılması M.Y.Gefter, İ.F.Gindin və L.E.Şepelevə məxsusdur[3]. Onların bu sahədəki çoxsaylı tədqiqatları bu gün də öz elmi sanbalını və əhəmiyyətini saxlamaqdadır.

Bu, Rusiya imperiyasında və Cənubi Qafqazda kənd təsərrüfatının vəziyyətini təhlil etmiş S.M.Dubrovskinin[4], V.D.Moçalovun[5] əsərlərinə də eyni dərəcədə aiddir.

XIX əsrdə və XX əsrin əvvəllərində Gürcüstanın və qismən də Cənubi Qafqazın digər regionlarının iqtisadi vəziyyətinə dair bir çox sanballı əsərin müəllifi olan görkəmli gürcü tədqiqatçısı P.V.Ququşvili, həmçinin Ş.İ.Basilaya öz araşdırmalarında[6] Cənubi Qafqazın müxtəlif bölgələrində, o

---

redaktəsi ilə). Bakı, 1989; Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. (S.S.Əliyarlının redaktəsi ilə). Bakı, 1996.

[1]Лаверычев В.Я. Монополистический капитал в текстильной промышленности России (1900-1917 гг.). М., 1963.

[2]Пажитнов К.А. Очерки истории текстильной промышленности дореволюционной России. М., 1958.

[3]Гефтер М.Я., Шепелев Л.Е. О проникновении английского капитала в нефтяную промышленность России (1898-1902 гг.) // Исторический архив, 1960 г., №6, с. 76-104; Гиндин И.Ф., Шепелев Л.Е. Банковские монополии в России накануне Великой Октябрьской социалистической революции. / Исторические записки, т.66; Шепелев Л.Е. Царизм и буржуазия в 1904-1914 гг. Л., 1987; Yenə onun. Акционерные компании в России. Л., 1973; Yenə onun. Царизм и буржуазия во второй половине XIX в. Л., 1981.

[4]Дубровский С.М. Сельское хозяйство и крестьянство России в период империализма. М., 1975.

[5]Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье к концу XIX в., М., 1958.

[6]Гугушвили П.В. Развитие промышленности в Грузии и Закавказье в XIX -XX вв., т.1, Тбилиси, 1957;Yenə onun. Развитие сельского хозяйства в Грузии и Закавказье в XIX-XX вв. ч. I, Тбилиси, 1968; Его же. Табаководство в Грузии и Закавказье (1901-1921 гг.) // Труды Института Экономики АН Груз. ССР, т.2, Тбилиси, 1959;Yenə onun. Шелководство в Грузии и Закавказье в XIX-XX вв. Тбилиси, 1960; Гулишамбаров С.И. Обзор фабрик и заводов Закавказского края. Тифлис, 1894.

cümlədən Şimali Azərbaycan iqtisadiyyatında baş verən dəyişikliklərə də toxunmuşdur. Bu müəllifin əsərləri daha çox Borçalı qəzası üzrə faktlarla tanış olmaq baxımından qiymətlidir.

Azərbaycanın XIX əsr və XX əsrin əvvəlləri tarixinin öyrənilməsində respublikamızın alimlərinin böyük xidmətləri olmuşdur. Bu baxımdan akademik Ə.S.Sumbatzadənin əsərlərini[1] xüsusi qeyd etmək lazımdır. Bu əsərlərdə kapitalizm dövründə Azərbaycanın sənaye və kənd təsərrüfatı tarixi ilk dəfə hərtərəfli tədqiq edilmişdir. B.Y.Axundovun[2], M.Ə.İsmayılovun[3],

---

[1] Басилая Ш.И. Закавказье в годы Первой мировой войны. Сухуми, 1968.

[2] Ахундов Б.Ю. Монополитический капитал в дореволюционной Бакинской нефтяной промышленности. Москва, 1959.

[3] İsmayılov M.Ə. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanın üzümçülük və şərabçılıq təsərrüfatında kapitalist münasibətlərinin inkişafı məsələsinə dair // Azərbaycan SSR EA Xəbərləri, 1956, № 3, s. 91-107; Yenə onun. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1960; İsmayılov M.Ə., İbrahimov M.C. Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi. Bakı: Elm, 1991. Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX – начале XX в. Баку, изд-во АН Азерб. ССР, 1964; Yenə onun. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: Элм, 1982; Yenə onun. Влияние экономики России на хозяйственное развитие Азербайджана в конце XIX - нач. XX вв. / Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры. Баку, 1955, 166-218 с.

T.T.Vəliyevin[1], İ.M.Həsənovun[2], S.S.Əliyarovun[3], M.C.İbrahimovun[4], Ə.Ə.Umayevin[5], E.B.Muradəliyevanın[6] əsərləri sənaye və kənd təsərrüfatının müxtəlif sahələrinin tarixinin öyrənilməsində mühüm rol oynamışdır. Q.Ə.Əliyevin[7], M.Q.Abdullayevin[1], H.Y.Verdiyevanın[2], H.N.Həsənovun[3],

---

[1] Vəliyev (Baharlı) M.H. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı, 1993; Vəliyev T.T. İmperializm dövründə Azərbaycanda pambıqçılıq, mahlıc istehsalı və səhmdarlıq təsisçiliyi / Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане. Баку, 1983, s.30-70;Yenə onun. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı, 1987; Yenə onun. XIX əsrin 60-90-cı illərində Şərqi Slavyan ölkələrində kənd təsərrüfatının vəziyyəti haqqında // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, №2, 2010, s.52-59; Yenə onun. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda dəmir yolu çəkilişi tarixindən // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1984, № 2, s. 46-52; Yenə onun XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı, 1977.

[2] Гасанов И.М. О производственных отношениях в государственной деревне Азербайджана в конце XIX века // Доклады АН Азерб. ССР, 1956, т. XII, № 8, с. 599-606; Yenə onun. Частновладельческое крестьянство в Азербайджане в первой половине XIX века, Баку, 1957.

[3] Алияров С.С. Нефтяные монополии в Азербайджане в период Первой мировой войны. Баку, 1974.

[4] Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, 1984.

[5] Умаев А.А. Кулацкие хозяйство, их место и удельный вес в экономике дореволюционного Азербайджана. // Вопросы истории Азербайджанакануна и периода первой русской революции. Сборник статей. Баку, 1985, с. 41-84; Yenə onun. Помещичье хозяйство в экономической структуре дореволюционного Азербайджана // Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане. Баку, 1983, с. 71-119; Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX века. Баку, 2002.

[6] Мурадалиева Э.Б. Города Северного Азербайджана в контексте развития капитализма вширь / История ремесла и промышленности Азербайджана в период позднего феодализма и генезиса капитализма. Баку, 1990, с. 43-54; Yenə onun. Города Северного Азербайджана во второй половине XIX в. Баку, 1991; Yenə onun. Кровъ земная – нефть Азербайджана и история. Кн.1, Баку, 2005.

[7] Əliyev Q.Ə. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr – XX əsrin ilk onillikləri). Bakı, 2001; Yenə onun. Azərbaycanda boru kəməri nəqliyyatının yaradılması // "Tarix və onun problemləri", №3, 1998, s.48-51; Yenə onun. Cənubi Qafqazda quru yolların inkişafı (XIX əsrin sonu – XX əsrin ilk onillikləri) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2003, №1, s.124-133; Yenə onun. Rusiyanın Qafqazda müstəmləkəçilik siyasətində nəqliyyat amili (XIX əsrin II

F.E.Bağırovun[4], A.Ş.Şahmuradovun[5] son dövrlərdə nəşr edilmiş əsərlərində Rusiyanın Şimali Azərbaycanda müstəmləkəçi siyasətinin müxtəlif cəhətləri araşdırılmış, eyni zamanda Rusiya hakim dairələrinin regionda iqtisadiyyatın inkişafına təsir edən tədbirlərindən də bəhs edilmişdir. B.Y.Axundov neft sənayesinin inkişafını öyrənən ilk iqtisadçı alimlərdəndir. Onun fundamental tədqiqat əsərində təkcə neft sənayesində inhisarçı kapitalın ağalığı deyil, həm də çar hökumətinin iqtisadi siyasəti açıqlanmışdır.

M.Ə.İsmayılovun XIX əsrin axırları – XX əsrin əvvəllərində Azərbaycanın iqtisadi tarixinə həsr olunmuş əsərlərində iqtisadiyyatın əsas sahələrinin inkişafı problemlərinin araşdırılması mərkəzi yer tutur. Bu baxımdan, statistik materiallarla zəngin olan "XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı" adlı monoqrafiyası və M.C.İbrahimovla birlikdə yazdıqları "Azərbaycanın neft sənayesinin inqilaba qədərki tarixi" əsəri[6] xüsusi qeyd edilməlidir. Bu əsərlərdə Rusiya hakim dairələrinin, rus kapitalistlərinin Şimali Azərbaycanda kənd təsərrüfatı və Bakı rayonunda neftçıxarma və neft emalı sahələrinin inkişaf etdirilməsində rolu məsələlərinə də xeyli yer verilmişdir.

S.S.Əliyarovun əsərinin əsas mövzusu inhisar və inhisar birliklərinin neft sənayesindəki rolu və onların Abşeron neft rayonunda hakim mövqelərinin işıqlandırılmasıdır. Bu əsərdə Rusiya sənaye sahələrinin, eləcə də yerli

---

yarısı) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2001, №3, s.141-153.

[1] Abdullayev M.Q. Rus çarizminin Şimali Azərbaycanda aqrar siyasətində 1847-ci il "Kəndli əsasnamələri"nin yeri // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2010, №2, s.90-94;Yenə onun. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, 2005.

[2] Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX – начале XX вв.). Баку, 1999.

[3] Həsənov H.N. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan dövlət kəndlilərinin üzümçülük təsərrüfatı. (Şamaxı və Göyçay qəzalarının materialları üzrə) / Birinci rus inqilabı ərəfəsi və dövrünün Azərbaycan tarixi məsələləri. Məqalələr məcmuəsi. Bakı, 1985; Yenə onun. Из истории северо-азербайджанской деревни в конце XIX – начале XX вв. Баку, 2007.

[4] Багиров Ф.Э. Переселенческая политика царизма в Азербайджане (1830-1914 гг.). М., 2009.

[5] Şahmuradov A.Ş. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində rusların Azərbaycanda sahibkarlıq fəaliyyəti: Tar. elm. nam. ... dis. avtoref. Bakı, 2000, 30 s.

[6] İsmayılov M.Ə., İbrahimov M.C. Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi. Bakı, 1991.

istehsalın ehtiyaclarını təmin edən neft-kimya zavodlarının fəaliyyətinin işıqlandırılması da özlüyündə böyük elmi əhəmiyyətə malikdir.

T.T.Vəliyevin XIX əsrin axırı – XX əsrin əvvəllərində Azərbaycanın qəzalarında sənaye sahələri tarixinin ətraflı tədqiq olunduğu çoxsaylı əsər və məqalələri uzun müddət davamlı aparılmış gərgin axtarışlarının məhsuludur. Onun əsərlərində Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq sübut edilmişdir ki, öyrənilən dövrdə qəzalardakı sənaye sahələrinin inkişaf səviyyəsi kifayət qədər yüksək olmuşdur. Neft sənayesində olduğu kimi, qəzalarda yaranmış sənaye sahələrində də kapitalist istehsalının yüksək mərhələsinə məxsus şirkətlər və səhmdar cəmiyyətləri hakim olmuşdur. Ölkə üzrə orta illik məhsulun dörddə üçündən çoxunu məhz onlara məxsus müəssisələr vermişdir. Bu əsərlərdə metallurgiya, yüngül və yeyinti sənayesi məhsullarının Rusiya mərkəzi quberniyalarının ehtiyaclarının hansı yollarla ödəməsi konkret statistik materiallarla şərh edilmişdir. Çarizmin milli ucqarlarda, o cümlədən Şimali Azərbaycanda rus burjuaziyasının mənafeyinin müdafiəçisi kimi ayrı-ayrı sahələrin inkişafına rəvac verməsi müəllif tərəfindən çoxsaylı ilkin mənbələr əsasında hərtərəfli tədqiq olunmuşdur.

E.B.Muradəliyevanın elmi maraq dairəsi yalnız şəhərlərimizin tarixinin araşdırılması ilə məhdudlaşmır. O, bəhs edilən əsərində səhmdarlığın meydana çıxması və onun sənaye sahələrindəki həlledici rolunu da araşdırmışdır.

F.M.Məmmədovun Gəncə şəhərinin kapitalizm dövrü tarixinə[1], M.Ə.Musayevin XX əsrin əvvəlində Bakı şəhərinin ticarətinə[2], Z.N.Nuriyevanın Azərbaycan milli burjuaziyasının sənaye sahəsindəki fəaliyyətinə[3] həsr etdikləri tədqiqat əsərlərində Rusiya-Azərbaycan iqtisadi əlaqələri haqqında maraqlı faktlar qeyd olunmuşdur.

Q.Ə.Əliyevin əsərlərində nəqliyyatın müxtəlif sahələrinin, xüsusən də dəmir yolları inşasının, şoseləşdirilmiş yollar çəkilməsinin iqtisadiyyatın inkişafına təsiri araşdırılmış, Rusiya dövlətinin nəqliyyat məsələsində yeritdiyi siyasətdən, rus sahibkarlarının bu sahədəki fəaliyyətindən də bəhs edilmişdir.

---

[1] Мамедов Ф.Н. Город Гянджа в период капитализма (1868-1917 гг.). Автореф. дисс... докт. ист. наук. Баку, 1990.

[2] Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti (1900-1917-ci illər). Bakı, 1975.

[3] Nuriyeva Z.N. Azərbaycan sənayesində milli burjuaziya. Bakı, 1999.

H.N.Həsənovun Şimali Azərbaycan kəndinin XIX əsrin sonu – XX əsrin başlanğıcında təsərrüfat həyatına həsr edilmiş monoqrafiyasında[1] kənd təsərrüfatının əsas sahələrində Rusiyada kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar baş vermiş dəyişikliklər geniş faktik material əsasında şərh edilmişdir.

Yuxarıda verilmiş tarixşünaslıq icmalından görünür ki, seçdiyimiz mövzuya dair ayrı-ayrı əsərlərdə az-çox məlumatların gətirilməsinə baxmayaraq, problem xüsusi tədqiqat obyekti olmamışdır.

**Tədqiqatın mənbə bazası.** Müxtəlif vaxtlarda nəşr olunmuş sənəd topluları, arxiv və dövri mətbuat materialları tədqiqat işinin əsas mənbə bazasını təşkil etmişdir. Ayrı-ayrı mənbələrdən əldə edilmiş sənəd və materialların kompleks şəkildə tədqiqata cəlb edilməsi mövzunun bütövlükdə və tam şəkildə araşdırılmasına imkan vermişdir.

Mənbələrin əhəmiyyətli bir hissəsi çar hakimiyyəti dövründə sənəd topluları içərisində Rusiya dövlətinin dövrün tələblərinə uyğun olaraq sənaye müəssisələrini xammal və yanacaqla təmin etmək, imperiyanın ehtiyaclarını ödəmək üçün qəbul edilmiş əsas qanun və qərarların cəmləşdirildiyi toplular[2] xüsusilə böyük əhəmiyyətə malikdir. Bu toplulardakı materiallarda ümumimperiya miqyasında iqtisadiyyatın sürətli inkişafının doğurduğu problemləri həll etmək üçün ali hakimiyyət nümayəndələrinin iştirakı ilə görülən tədbirlər haqqında çox mühüm məlumatları əks etdirir.

Dissertasiyanın yazılmasında Sovet dövründə nəşr edilmiş çox zəngin arxiv sənədləri və materiallarının toplandığı məcmuələrdən geniş istifadə

---

[1] Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку, 2007.

[2] Azərbaycan tarixi üzrə qaynaqlar (S.S.Əliyarov və Y.M.Mahmudovun redaktəsi ilə). Bakı, 1989; Акты собранные Кавказской Археографической Комиссией. Изд. под ред. предс. комиссии Ад. Берже, т. V-XII, Тифлис, 1873-1904; Антелева И.Г. Реформы поземельного устройства государственных крестьян Закавказского края в конце XIX в. Документы и материалы. Сухими, 1952; Колониальная политика царизма Российского царизма в Азербайджане в 20-60-е гг. XIX в.; ч.I. Феодальные отношения и колониальный режим 1827-1843 гг. М.-Л., 1937; ч.II. Феодальные отношения и колониальный режим 1843-1868 гг., 1937; Полное собрание законов Российской империи. Собр. I, т.32-й, 1814-1815 гг., СПб., 1830; т.37-й, 1820-1821 гг., СПб., 1830; Собр. II, т.21-й, 1846 г. СПб., 1947; т.42-й, отд. I, 1867 г., СПб., 1871; т.48-й, отд III, 1873 г., СПб., 1876: т.52-й, 1878 г., СПб., 1879; т.54-й, 1879-1880 гг. СПб., 1881; собр. III, т.15-й, 1895., СПб., 1899; т.16-й, 1896 г. СПб., 1899; т.17-й, 1897 г., СПб., 1900 г., т.19-й, 1899 г.; Собрание узаконений и распоряжений правительства, издаваемое при правительствующем сенате. Отд.1, 1914-1917 гг.

edilmişdir. Onlardan neft sənayesi və metallurgiyaya aid olan topluları xüsusi qeyd etmək lazımdır.

Rusiya imperiyası miqyasında XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlində metallurgiya və neft sənayesində inhisarçı birliklərin vəziyyətinə həsr olunmuş sənəd toplularında[1] metal və yanacaq istehsalında baş verən dəyişikliklər haqqında qiymətli məlumatlar toplanmışdır. Cənubi Qafqaz dəmir yolları ilə yükdaşımaları haqqında nəşr olunmuş statistik toplular[2] da bəhs olunan dövrdə Cənubi Qafqazdakı, o cümlədən Azərbaycandakı dəmir yolu stansiyaları vasitəsi ilə daxil olan və ixrac edilən yüklərin miqdarının necə dəyişməsini izləməyə imkan vermişdir.

Dissertasiya işində həmçinin çarizmin aqrar qanunlarının, digər qanunvericilik aktlarının nəşr edildiyi toplulardan, arxiv sənədlərindən, dövri mətbuat materiallarından da istifadə olunmuşdur.

Dissertasiya mövzusu üzrə tədqiqat işi apararkən çoxlu sayda arxiv materiallarından da istifadə olunmuşdur. Onların içərisində Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin (DTA-nın) fondlarında saxlanılan sənədlər xüsusilə mühüm əhəmiyyətə malikdir. DTA-nın Qafqaz canişini dəftərxanası (fond 1), Bakı quberniyası və Dağıstan vilayəti əkinçilik və dövlət əmlakı idarəsi (fond 22), Ali Gürcüstan hökumətinin xəzinə ekspedisiyası (fond 24), Bakı qubernatorunun dəftərxanası (fond 45), Bakı quberniyası kəndlilər üzrə iş idarəsi (fond 51), Qafqaz Dağ idarəsi (fond 92), Bakı gömrükxanası (fond 202) və digər fondlarında mühafizə edilən sənədlər və materiallar Rusiya ağalığı dövründə Şimali Azərbaycanın iqtisadi vəziyyətini öyrənmək üçün mühüm faktlarla zəngindir.

Mövzunun tədqiqi zamanı dövri mətbuat materiallarından da geniş istifadə edilmişdir. “Кавказ”[3], “Каспий”[4] qəzetlərində, “Кавказское хозяйство”[5],

---

[1] Монополии в металлургической промышленности России. 1900-1917. Документы и материалы. М.-Л., 1963; Монополистический капитал в нефтяной промышленности России. 1883-1914. Документы и материалы, М.-Л., 1961; Монополистический капитал в нефтяной промышленности России. 1914-1917. Документы и материалы. Л., 1963; Нефтяные монополии России и их участие в борьбе за раздал мирового рынка в 90-х годах XIX в. (Составители: Фурсенко А.А., Шепелев Л.Е.) / В кн. Материалы по истории СССР, т. VI, М., 1959.

[2] Краткие обзоры коммерческой деятельности Закавказских железных дорог по статическим данным о перевозках пассажиров и грузов за 1883-1916 гг. Тифлис, 1884-1918.

[3] «Кавказ», 1850-1917 гг.

[4] «Каспий», 1881-1917 гг.

[5] «Кавказское хозяйство», 1901-1917 гг.

"Нефтяное дело"[1] jurnallarında və digər mətbuat orqanlarında çap olunmuş materiallar bəhs olunan dövrdə iqtisadiyyatın ayrı-ayrı sahələrindəki vəziyyət, mərkəzi quberniyalardakı sənaye müəssisələrinin xammal və yanacaqla təchizatı və s. bu kimi məsələləri araşdırmaq üçün çox faydalı faktlarla zəngindir.

Tədqiqat prosesinə müxtəlif xarakterli mənbələrin (arxiv sənədlərinin, dövri mətbuat materiallarının və s.) kompleks şəkildə cəlb edilməsi araşdırılan dövrdə Rusiyanın təsiri ilə Şimali Azərbaycan iqtisadiyyatında baş verən dəyişiklikləri aydınlaşdırmağa imkan vermişdir.

**Tədqiqatın xronoloji çərçivəsi** XIX əsrin ortalarından 1917-ci ilədək olan dövrü əhatə edir. XIX əsrin ortalarında Rusiyanın mərkəzi quberniyalrında kapitalizmin sürətli inkişafa başlaması bütün imperiya miqyasında iqtisadi münasibətlərdə keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. 1917-ci ilin fevral ayında isə çar hakimiyyətinin süqut etməsi və Rusiyanın yeni siyasi-iqtisadi sistemə keçməsi ilə əlaqədar tədqiqat işinin xronologiyasının XX əsrin əvvəlləri ilə məhdudlaşması məqsədəuyğun hesab edilmişdir. Eyni zamanda, ayrı-ayrı məsələlərdən bəhs edərkən iqtisadiyyatda baş verən dəyişikliklərin mahiyyətinin tam şəkildə aydınlaşdırmaq üçün Rusiya işğalının başa çatdığı illərdən sonra hakimiyyət orqanlarının atdığı addımları da şərh etməyi zəruri saymışıq. Bu cür yanaşma XIX əsrin ortalarından sonra Şimali Azərbaycan iqtisadiyyatında baş verən dəyişikliklərin miqyasını bütün dolğunluğu ilə araşdırmağa imkan vermişdir.

**Tədqiqatın obyekti**ni XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Şimali Azərbaycanda iqtisadiyyatın başlıca sahələrinin yaranması və inkişafına Rusiyanın təsiri probleminin öyrənilməsi təşkil edir.

**Tədqiqatın predmeti** problemlə bağlı tarixi və geosiyasi şəraitin elmi təhlili, Rusiyanın aqrar qanun və sərəncamlarının Şimali Azərbaycanda tətbiqinin, kənd təsərrüfatında təkmil alət və aqro-texniki qaydaların yayılması prosesinin, əkinçilik və maldarlıq təsərrüfatlarında baş verən yeniliklərin, çar hakimiyyət orqanlarının qərar və sərəncamlarının başlıca sənaye və kənd təsərrüfatı sahələrinin, nəqliyyatın inkişafına necə təsir etməsinin, kənd təsərrüfatı məhsulları istehsalında baş verən struktur dəyişikliklərinin, həmçinin imperiyanın mərkəzi quberniyalarındakı sənaye müəssisələrinin ehtiyaclarını ödəmək üçün sifarişlər yerinə yetirilməsinə cəlb edilmiş neft, əlvan metallurgiya, ipək emalı, pambıqtəmizləmə və yeyinti sahələrinin tarixilik metodu əsasında araşdırılmasıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan başlıca məqsəd XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Şimali

---

[1] «Нефтяное дело», 1900-1917 гг.

Azərbaycan iqtisadiyyatında Rusiyanın təsiri ilə baş vermiş dəyişiklikləri bütövlükdə və tam şəkildə araşdırmaqdır. Tədqiqat zamanı Rusiya hakimiyyət orqanlarının, onun səlahiyyətli nümayəndələrinin qərar və sərəncamlarının ölkəmizdə əsas sənaye və kənd təsərrüfatı sahələrinin, nəqliyyatın inkişafına necə təsir etməsinin, ayrı-ayrı istehsal sahələrinin imperiyanın mərkəzi quberniyalarındakı sənaye müəssisələrinin ehtiyaclarını ödəmək üçün sifarişlər yerinə yetirilməsinə cəlb edilməsinin, kənd təsərrüfatı məhsulları istehsalında baş verən struktur dəyişikliklərinin təhlil edilməsinə daha çox diqqət yetirilmişdir.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsinə səy göstərilmişdir:

- işğaldan sonra bütövlükdə Rusiya imperiyası miqyasında və Şimali Azərbaycanda iqtisadiyyatın aparıcı sahələrində baş verən başlıca yenilikləri araşdırmaq və müqayisəli təhlilini aparmaq;
- aqrar sahə üzrə hökumət siyasətinin, qəbul edilmiş qanun və sərəncamların əkinçilikdə yaratdığı dəyişiklikləri izləmək və onların kənd təsərrüfatı məhsulları istehsalına təsirini araşdırmaq;
- texniki bitkilər əkilməsi, çəkilliklər salınması, bağçılıq və bostançılıq sahələrində Rusiyanın təsirilə baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini və onların ümumi iqtisadi vəziyyətə təsirini tədqiq etmək;
- dağ-mədən sənayesi sahələrində müəssisələrində istehsalın ümumi həcminin dəyişməsi dinamikasını və onu doğuran səbəbləri aydınlaşdırmaq;
- xırda istehsal sahələrində, kustar üsulla gündəlik tələbat və məişət əşyaları istehsalında baş verən dəyişiklikləri öyrənmək;
- nəqliyyatın ümumi vəziyyətini, dəmir yolları çəkilməsi, yükdaşımaların həcminin və təyinatının dəyişməsi dinamikasını konkret faktlarla təhlil etmək.

**Tədqiqatın nəzəri-metodoloji əsası**. Mövzu üzərində işləyərkən mənbələrdə və tarixi ədəbiyyatdakı faktlar, onlara tənqidi yanaşma prinsipi əsas götürülməklə, tam şəkildə tədqiqata cəlb edilmişdir. Həm də bu zaman müxtəlif xarakterli mənbələrdən götürülmüş faktları sistemləşdirməyə, zəruri ümumiləşdirmələr aparmağa, müqayisə və qarşılaşdırma yolu ilə təhlil etməyə səy göstərilmişdir. Tədqiqat prosesində tarixilik, məntiqi və xronoloji ardıcıllıq, bütün fakt və hadisələrə obyektiv yanaşma əsas meyar olaraq götürülmüşdür.

**Dissertasiya işinin elmi yeniliyi.** Təqdim olunan dissertasiya vətən tarixşünaslığında Rusiyanın XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Şimali Azərbaycan iqtisadiyyatına təsiri probleminin çoxsaylı mənbələr və faktik materiallar əsasında ətraflı və tam şəkildə araşdırıldığı ilk tədqiqat əsəridir. Dissertasiya işinin başlıca yenilikləri aşağıdakılardır:

- aqrar sahədə çar hökumətinin siyasəti, qəbul edilmiş qanun və sərəncamların əkinçilik təsərrüfatında yaratdığı dəyişikliklər ilk dəfə kompleks şəkildə tədqiq edilmişdir;
- kənd təsərrrüfatında təkmil alətlərin və yeni aqro-texniki qaydaların yayılmasında hakimiyyət orqanlarının fəaliyyəti, Rusiyadan köçürülən əhalinin rolu məsələlərinə aydınlıq gətirilmişdir;
- taxıl və texniki bitkilərin əkin sahələrinin dəyişməsi dinamikası, tut bağları və üzümlüklərin genişləndirilməsinin səbəbləri, kəndli təsərrüfatında baş verən digər dəyişikliklər dövlət siyasəti ilə bağlı ilk dəfə olaraq təhlil edilmişdir;
- maldarlıq təsərrüfatında baş verən dəyişikliklər, qoyunçuluğun, ətlik, südlük maldarlığın Rusiya bazarının ehtiyacları üçün inkişaf etdirilməsi dinamikası ardıcıl surətdə yeni arxiv materialları əsasında şərh edilmişdir;
- dağ-mədən sənayesində baş verən dəyişikliklər illər üzrə ardıcıl izlənmiş, neft çıxarılması və emalı, mis istehsalı sahələrində görülən tədbirlər üzə çıxarılmışdır;
- yüngül və yeyinti sənayesi sahələrində rus hökuməti və sahibkarlarının fəaliyyəti nəticəsində baş vermiş dəyişikliklər müasir tarixşünaslığın tələbləri əsasında daha obyektiv və əsaslı şəkildə təhlil edilmişdir;
- rus sənayesinin təsiri ilə xırda istehsal sahələrində baş verən dəyişikliklər, kustar sənətkarlıqda məhsul istehsalının artırılması istiqamətində görülən tədbirlər faktik materiallar əsasında araşdırılmışdır;
- hakimiyyət orqanlarının nəqliyyat sahəsində, xüsusən dəmir yollarının çəkilməsi istiqamətində gördüyü tədbirlər, yükdaşımalarda kəmiyyət göstəriciləri ilk dəfə faktların müqayisəli təhlili əsasında kompleks şəkildə öyrənilmişdir;
- ilk dəfə olaraq, təsirin yalnız Rusiya tərəfindən göstərildiyinin iddia edilməsinin heç də doğru olmadığı göstərilir, Azərbaycanın müstəmləkə olmasına baxmayaraq, ölkəmizdəki kənd təsərrüfatı və sənaye sahələrinin, xüsusən neft sənayesinin bilavasitə inkişafı nəticəsində Rusiyanın ayrı-ayrı quberniyalarında bəzi sənaye sahələrinin genişlənməsi və yeni istehsal müəssisələrinin yaranması sübut olunur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəaları və nəticələrindən Şimali Azərbaycan tarixi üzrə ümumiləşdirilmiş əsərlər, orta və ali məktəblər üçün dərslik və dərs vəsaitləri hazırlanmasında istifadə edilə bilər. Dissertasiyadakı faktik material və məlumatlardan, statistik göstəricilərdən uyğun problemlər üzrə tədqiqatlar aparılması, Şimali Azərbaycan və Rusiya iqtisadiyyatının qarşılıqlı təsiri haqqında monoqrafiyalar hazırlanması zamanı da faydalı ola bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universiteti Slavyan ölkələri tarixi kafedrasında yerinə yetirilmişdir.

Aparılmış tədqiqatın əsas məzmunu, başlıca müddəaları və nəticələri nüfuzlu elmi jurnallarda çap edilmiş məqalələrdə öz əksini tapmışdır. Həmçinin araşdırmanın nəticələri haqqında gənc tədqiqatçıların Heydər Əliyevin anadan olmasının 87 illiyinə həsr edilmiş elmi konfransında məruzə edilmişdir.

**Dissertasiya işinin quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat obyekti kimi seçilmiş mövzunun elmi aktuallığı və əhəmiyyəti, xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə dərəcəsi, əsas mənbələr təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası, elmi yenilikləri, əməli əhəmiyyəti şərh edilmişdir.

Dissertasiyanin birinci fəsli **"Kənd təsərrüfatının vəziyyəti və hökumətin bu sahədəki tədbirləri"** adlanır və dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Rusiyanın aqrar qanun və sərancamlarının Şimali Azərbaycanda tətbiqi"** adlanır. Bu yarımfəsildə Rusiya imperiyasının Şimali Azərbaycanda işğallara başlamasının sosial-iqtisadi həyatın bütün sahələrində, xüsusən də torpaq sahibliyi, vergi və mükəlləfiyyətlərin ödənməsi və miqdarı ilə bağlı məsələlərdə yaratdığı dəyişikliklər araşdırılmışdır.

Qeyd olunmuşduur ki, 14 may 1870-ci il tarixli "Əsasnamə"sinə görə, sahibkar torpaqlarında yaşayan 15 yaşından yuxarı kişi cinsindən olan hər bir kəndliyə 5 desyatin yararlı torpaq verilməsi[1] nəzərdə tutulduğu halda, Mərkəzi Rusiyada 1861-ci il islahatına görə mülkədar kəndlilərinə 12, dövlət kəndlilərinə isə 15 desyatinə qədər pay torpağı verilirdi. Dövlət torpaqlarında yaşayan azərbaycanlı əhalinin də vəziyyəti ağır idi. Çar hakimiyyəti nümayəndələrində belə bir düşüncə hakim idi ki, rus dövlətinə – xəzinəyə məxsus torpaqlar yalnız Mərkəzi Rusiyadan köçürülən rus əhalisinə verilməlidir.[2]

Çarizmin Şimali Azərbaycanda həyata keçirdiyi aqrar qanunlar, məhdud cəhətlərinə və müstəmləkəçi xarakterinə baxmayaraq, kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafına müsbət təsir göstərdi.

İkinci yarımfəsil **"Kənd təsərrüfatında təkmil alətlərin və aqro-texniki qaydaların yayılması"** adlanır. Rusiyanın XIX əsrin ortalarından etibarən Şimali Azərbaycanda kənd təsərrüfatının inkişafına təsiri məsələləri içərisində o dövrün daha təkmil əkinçilik alətlərinin və digər texniki vasitələrin, XIX əsrin sonu – XX əsrin başlanğıcında isə həmçinin traktor və maşınların yerli əhali içərisində yayılması mühüm yer tuturdu. Bəhs olunan dövrdə təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərinin və maşınlarının qiymətinin çox yüksək olması onların Şimali Azərbaycan kəndlərində geniş yayılması yolunda çox ciddi əngəl idi. Maddi imkanı məhdud olan kəndlilərin çoxunun bu təkmil alətləri almağa gücü çatmırdı. Ona görə də, rus sahibkarları təkmil alət və maşınlarının satışında güzəştlər tətbiq edirdilər.

XIX əsrin 70-80-ci illərindən etibarən Şimali Azərbaycanda fəaliyyət göstərən kənd məktəblərində hakimiyyət orqanlarının təşəbbüsü ilə bağçılıq, ipəkçilik, arıçılıq və sənət şöbələri yaradılmasına başlandı. Bu addım məktəb təhsili vasitəsilə təcrübi bilik və bacarıqların yayılmasına xeyli yardım etdi. Bəhs olunan dövrdə yerli əhali içərisində barama qurdu bəslənməsinin yeni, müasir üsullarının yayılmasında kənd məktəblərinin təcrübəsi xüsusilə faydalı idi.

Üçüncü yarımfəsil **"Əkinçilik təsərrüfatında baş verən dəyişikliklər"** adlanır. Şimali Azərbaycanın Rusiya imperiyasına birləşdirilməsi kənd təsərrüfatına çox ciddi təsir göstərdi. Bu, ilk növbədə, aparıcı əkinçilik sahəsi olan taxılçılıqda özünü göstərdi. Rusiya hakimiyyət orqanlarının fəaliyyəti nəticəsində XIX əsrin sonu – XX əsrin əvvəllərində Nuxa qəzası mühüm tü-

---

[1] Azərbaycan tarixi üzrə qaynaqlar, s.315.

[2] Антелева И.Г. Реформы поземельного устройства государственных крестьян Закавказского края в конце XIX в., с.19.

tünçülük mərkəzinə çevrildi. Bu işdə qəzaya köçürülmüş rus kəndliləri əhəmiyyətli rol oynadılar. Nuxa qəzasının Eloğlu və Alekseyevka kəndlərində Kubandan köçürülmüş rus kəndliləri XX ərsin əvvəllərində 4 tütünçülük plantasiyası yaratmış və yüksək keyfiyyətli tütün növləri becərilməsinə başlamışdılar.[1]

XIX əsrin ortalarından etibarən rus dövlətinin Şimali Azərbaycanda inkişafına diqqət yetirdiyi texniki bitkilərdən biri də zəfəran idi. Hakimiyyət orqanlarının gördüyü tədbirlər nəticəsində XIX əsrin 50-60-cı illərində Şimali Azərbaycanda zəfəran istehsalı artmağa başladı. Artıq 60-cı illərin sonunda Abşeronda hər il orta hesabla 2 min puda qədər zəfəran toplanırdı.

XIX əsrin 50-60-cı illərində rus ipək fabriklərinin tələbatının sürətlə artması ilə bağlı ölkəmizdə barama istehsalı genişlənməkdə idi. Nuxa, Şuşa və Şamaxı qəzalarında, Çar-Balakən dairəsində baramaçılıq sürətlə inkişaf edirdi. Bu dövrdə Şimali Azərbaycandan Mərkəzi Rusiyaya xam ipək ixracı sürətlə artmağa başladı.

Faktlar əsasında müəyyən olunmuşdur ki, XIX əsrin ortalarından etibarən Şimali Azərbaycanda bütövlükdə əkinçilik təsərrüfatında əmtəə-pul münasibətlərinin inkişafında və ölkə miqyasında genişlənməsində, ticarət əkinçiliyinin, xüsusən də ipəkçiliyin və pambıqçılığın inkişafında Rusiyanın təsirinin çox güclü olduğunu əyani surətdə göstərir.

Dördüncü yarımfəsil **"Maldarlıq təsərrüfatında baş verən dəyişikliklər"** adlanır. XIX əsrin ortaları və ikinci yarısında, eləcə də XX əsrin əvvəllərində Şimali Azərbaycanın kənd təsərrüfatında əkinçiliklə yanaşı maldarlıq və qoyunçuluq çox mühüm yer tuturdu. Şəhər əhalisinin sürətlə artması XIX əsrin sonu – XX əsrin əvvəllərində maldarlıq məhsullarına: ət, süd, yağ və pendirə tələbatın artmasına, bu da öz növbəsində ətlik-südlük maldarlığın inkişafına geniş imkan yaradırdı. Bəhs olunan dövrdə ölkəmizə köçürülən rus əhalisinin təsiri ilə yeni cins mal-qoyunun geniş miqyasda bəslənməsi də əmtəəlik maldarlıq məhsulları istehsalının inkişafına müsbət təsir göstərirdi. Rus hökumətinin Şimali Azərbaycanda maldarlığın inkişafına müəyyən təkan verən tədbirlərinə təcrübə stansiyalarının təşkil edilməsi, at zavodlarının yaradılması, yoluxucu xəstəliklərə qarşı mübarizə aparmaq üçün baytarlıq xidmətinin genişləndirilməsi və s. addımlar da daxil idi.

İkinci fəsil **"Dağ-mədən sənayesi"** adlanır. Bu fəslin birinci yarımfəsli **"Neft sənayesi və onunla bağlı olan istehsal sahələri"** adlanır. Rusiyada XIX əsrin ortalarından etibarən kapitalist sənayesinin sürətli inkişafı, kapitalizm münasibətlərinin eninə inkişafı üçün müəyyən qədər kapital toplanmasına, eyni zamanda bu kapital əsasında müstəmləkə ucqarlarında

---

[1] Обзор Елисаветпольской губернии за 1910 г., с.33.

sənaye müəssisələrinin yaradılmasına imkan verirdi. Eləcə də belə müəssisələrin istehsal etdikləri məhsulu almaq imkanı olan Ümumrusiya bazarı formalaşırdı. Bu proses Şimali Azərbaycanın neft sənayesində xeyli güclü idi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində rus şirkətləri və ayrı-ayrı fiziki şəxslər də Şimali Azərbaycan qəzalarında neft axtarışı işi ilə məşğul olmaq üçün müraciətlər edirdilər. Rusiya – Asiya Bankının direktoru A.İ.Putilovun sərəncamında 200 min desyatindən çox torpaq sahəsi vardı.[1] Neft işlərinə rəhbərlik üçün "A.Putilovun Salyan neft kontoru" təşkil edilmişdi. Rusiyanın tanınmış adamlarından qraf Şeremetyev, Peterburq Dünya Ticarət Bankının direktoru A.Vışneqradski və başqaları da təkində neft güman edilən Azərbaycan torpaqlarını satın almışdılar. A.Vışneqradski təkcə "Salyan düzü"ndə 1500 desyatin torpağa malik idi.[2]

Göründüyü kimi, neft torpaqlarının icarəsi üstündə əsasən böyük rəqabət iri inhisarlar və onlara tabe olan səhmdar cəmiyyətləri arasında getmişdir. Çar hökumətinin həyata keçirdiyi himayə siyasətinin bilavasitə nəticəsi kimi meydana çıxan səhmdar cəmiyyətlərinin – kapitalizmin daha yüksək mərhələsinin məhsulu olan bu müəssisələrin sayı getdikcə artır və onlar neft sənayesində həllediçi amilə çevrilirdilər.

Bu fəslin ikinci yarımfəsli **"Əlvan metallurgiya sənayesinin inkişafı"** adlanır. Çar Rusiyası XIX əsrin ortalarından etibarən Şimali Azərbaycanda ilk növbədə imperiyanın daxili quberniyalarında inkişaf etdirilməsi mümkün olmayan istehsal sahələrinin, xüsusən də duru yanacaq istehsalının, xammal emalının yaradılmasına şərait yaratmağa çalışırdı. 1864-çü ildə "Simens və Qalske" şirkəti Tiflislə Culfa arasında Şimali Azərbaycanda ilk teleqraf xəttini çəkmiş, Gədəbəydə böyük və o dövrün müasir texnikası ilə təchiz olunmuş zavod inşa etmişdi [3]. Sonrakı dövrdə isə Gədəbəy mis filizi mədənlərini və misəritmə zavodunu idarə edən kompaniya "Simens qardaşları" adlanmışdı.

Statistik materiallardan aydın görünür ki, çar hökumətinin həyata keçirtdiyi himayə siyasətinin nəticəsi kimi XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycanın qərbində böyük bir metallurgiya mərkəzi yaradılmış və Birinci dünya müharibəsi ərəfəsində bu mərkəzlə bağlı olan bütün istehsal sahələri inhisarlaşmışdı.

---

[1] AR DTA, f.51, siy.2, iş 272, v.5,6.
[2] AR DTA, f.92, siy.3, iş 2030, v. 265, 267.

[3] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в., с.269.

Dörd yarımfəsildən ibarət olan üçüncü fəsil **“Sənayenin başqa sahələri”** adlanır. **“İpək emalı sənayesinin inkişafı”** adlanan birinci yarımfəsildə XIX əsrin 30-40-cı illərində Mərkəzi Rusiya toxuculuq sənayesinin tələbatının artması ilə əlaqədar Şimali Azərbaycanda barama becərilməsi və xam ipək emalı sahəsində baş verən canlanmadan bəhs olunur. Xanabad manufakturası XIX əsrin ortalarında imperiyanın xam ipəyə olan tələbatını tam ödəyə bilmədiyindən Moskva sənayeçiləri Alekseyev və Voronin qardaşları o zaman Cənubi Qafqazın başlıca ipək emalı mərkəzi sayılan Şəkidə böyük, o dövrün müasir texnikası ilə təchiz edilmiş bir fabrikin inşasına qərar verdilər. 1861-ci ildə işə salınmış bu fabrik o dövrkü müəlliflərin yazdıqlarına görə, Avropada ipək emalı üzrə ən böyük müəssisə idi.

İkinci yarımfəsildə **“Pambıqtəmizləmə sənayesi”** haqqında bəhs edilmişdir. XIX əsrin 60-70-ci illərində Şimali Azərbaycanın qəzalarında pambıqçılıqın inkişafı üçün müəyyən addımlar atıldı, buraya Amerika və Misirdən toxumluq çiyid gətirildi.[1] Artıq XIX əsrin 80-ci illərində ildə orta hesabla 50 min pud mahlıc əldə edilirdi. Pambıq-parça sənayeçiləri pambıq istehsalı mərkəzlərində pambığı çiyiddən təmizləyən qurğular – kotton-cinlər quraşdırmağa başladılar. Şimali Azərbaycanda ilk pambıqtəmizləmə zavodu 1882-ci ildə Naxçıvanda yaradıldı.[2] XX əsrin əvvəllərində ölkəmizin pambıqtəmizləmə sənayesində rus kapitalına məxsus şirkət və səhmdar cəmiyyətləri fəaliyyətlərini daha da genişləndirdilər.

**“Yeyinti sənayesi”** adlanan üçüncü yarımfəsildə Şimali Azərbaycanda XIX əsrdə və XX əsrin əvvəllərində yeyinti sənayesi sahələrində rus sahibkarlarının fəaliyyəti araşdırılmışdır. Qeyd olunmuşdur ki, yeyinti sənayesinin ən böyük sahəsi balıqçılıq təsərrüfatı və emalı idi. Azərbaycanın şimal hissəsinin işğalı başa çatdırıldıqdan dərhal sonra Kür çayı boyundakı bütün vətəgələr dövlətin ixtiyarına keçdi və “Salyan xəzinə qəyyumluğu”nun idarəsinə verildi.[3] XIX əsrin ortalarında balıq vətəgələrində işləyənlərin çoxu Rusiyadan gəlmələr idi. Balıq sənayesinin kapitalistcəsinə güclü inkişafı XIX əsrin 90-cı illərindən başlandı.[4]

Rusiyanın güclü təsirinə məruz qalmış yeyinti sənayesinin mühüm sahələrindən biri də şərabçılıq idi. Şimali Azərbaycanda şərab istehsalına əsasən XIX əsrin ikinci yarısından başlanmışdı. Bakı-Tiflis dəmir yolunun

---

[1] Петрович П. Сельскохозяйственный обзор по Закавказью, 1913 г. Тифлис, 1914, с.98.
[2] İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı, s.151.
[3] Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в., с.318.
[4] Əliyev Q.Ə. Azərbaycan nəqliyyatı və iqtisadiyyatı (XIX əsr – XX əsrin ilk onillikləri), s.130.

istifadəyə verilməsi Bakı quberniyasının rus əhalinin nisbətən çox məskunlaşdırıldığı Şamaxı və Göyçay qəzalarında şərab, konyak istehsalının daha da artmasını şərtləndirmişdi.[1]

Dördüncü yarımfəsil **"Nəqliyyatın inkişafı"** adlanır. Burada qeyd edilmişdir ki, XIX əsrin ortalarından etibarən Rusiya hökuməti Şimali Azərbaycanın Xəzər sahili bölgələrində möhkəmlənmək və Cənubi Qafqazın daxili hissəsinə nüfuz etmək məqsədinə xidmət edən yolların yararlı hala salınmasına xüsusi diqqət yetirirdi. XIX əsrin 60-90-cı illərində rus mühəndis və texnikləri Cənubi Qafqazda geniş quru yolları şəbəkəsi yaratmaq, yeni dəmir yolları çəkmək təşəbbüsləri ilə çıxış edirdilər. 1883-cü ildə Bakı-Tiflis, 1900-cü ildə Bakı-Petrovsk dəmir yollarının inşasında, körpülər salınmasında, mövcud quru yollarının şoseləşdirilməsində rus mühəndis və texnikləri fəal iştirak etmişdilər.

Dissertasiya işinin **"Nəticə"** hissəsində problem üzrə əsas yekunlar qeyd olunmuş, müharibənin doğurduğu çətinliklərin Rusiya imperiyasının dağılmasına və müstəqil Azərbaycan dövlətinin yaradılmasına gətirib çıxarıldığı göstərilmişdir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. XIX əsrdə və XX əsrin əvvəllərində Şimali Azərbaycanda əlvan metallurgiya sənayesinin inkişafında Rusiyanın rolu. //Bakı, "Tarix və onun problemləri" jurnalı, №4, 2008, s.84-92.
2. Rusiya və XIX əsrdə və XX əsrin əvvəllərində Şimali Azərbaycan maldarlıq təsərrüfatında baş verən dəyişikliklər. //Bakı, "Azərbaycan arxeologiyası və etnoqrafiyası"jurnalı, №2, 2009, s.212-218.
3. XIX əsrin ortaları – XX əsrin əvvəllərində Rusiyanın Şimali Azərbaycanda ipək emalı sənayesinin inkişafında rolu. //Bakı, "Bakı Universitetinin Xəbərləri" jurnalı, Humanitar elmlər seriyası, №2, 2009, s.94-100.
4. Rusiyanın aqrar qanun və sərəncamlarının Şimali Azərbaycanda tətbiqi (XIX əsr və XX əsrin əvvəlləri). //Bakı, "Tarix və onun problemləri" jurnalı, №4, 2009, s. 69-75.

---

[1] Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв., с.54.

5. Влияние России на развитие транспорта в Северном Азербайджане (XIX – начало XX вв.). //Москва, журнал «Вопросы гуманитарных наук», № 1, 2010, с.32-37.

6. Rusiyanın təsiri ilə Şimali Azərbaycanda kənd təsərrüfatında təkmil alətlərin və aqro-texniki qaydaların yayılması (XIX – XX əsrin əvvəlləri). / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 87-ci ildönümü münasibəti ilə tarix fakültəsi professor-müəllim heyətinin və magistrantlarının elmi-praktik konfransının materialları. Bakı: Bakı Universiteti nəşriyyatı, 2010, s.210-214.

7. Rusiyanın təsiri ilə Şimali Azərbaycanın əkinçilik təsərrüfatında baş verən dəyişikliklər (XIX – XX əsrin əvvəlləri). //Bakı, "Bakı Universitetinin xəbərləri" jurnalı, Humanitar elmlər seriyası, №2, 2010, s.126-133.

8. Şimali Azərbaycanda texniki bitkilərin yayılmasında Rusiyanın rolu (XIX – XX əsrin əvvəlləri). // "Türk dünyası: dünəni və bu günü" mövzusunda beynəlxalq elmi konfransın tezisləri. Bakı, "Viktori" nəşr., 2011, s.172-176.

9. Влияние России на развитие транспорта в Северном Азербайджане (XIX – начало XX вв.). Тбилиси, журнал «Кавказ и мир» №19, 2015 s. 98-102.

**Г.М.Пашаев**

## Россия и развитие экономики Азербайджана во второй половине XIX и начале XX в.

## РЕЗЮМЕ

Во Введении отмечается научная актуальность работы, подчеркивается важность ее изучения для истории родины, приводятся хронологическая таблица работы, ее цель и задачи: комментируются достижения и недостатки, характеризуются главные источники, указываются методологические основы, главные научные новшества, теоретическая и практическая значимость работы.

В первой главе анализируются изменения, произошедшие в сельском хозяйстве Северного Азербайджана под влиянием Российской империи в 19-м и начале 20-го века. В этой главе исследуются результаты внедрения аграрных законов царизма, распространение

усовершенствованных инструментов и передовых агротехнических правил в земледелии, расширение коммерческого земледелия, выращивание хлопка, табака и других технических растений, меры предпринимаемые представителями правительства с целью развития шелководства, новшества в области животноводства, в частности роль русского населения деревень в разведении тонкошерстных овец.

Во второй главе повествуется о деятельности российского правительства в создании и развитии горно-рудной промышленности. Отмечается, что стремительное развитие нефтяной индустрии и связанных с ней областей стало возможным благодаря мерам принятым царизмом с целью удовлетворения растущего спроса на нефтепродукты в центральной России, а также предпринимательская деятельность русских промышленников.

В третьей главе исследуется роль представителей российского правительства и русских промышленников в создании и развитии областей легкой и пищевой промышленности.

В Заключении приводятся основные результаты исследования. Особо отмечается, что, несмотря на то, что Северный Азербайджан находился в колониальной зависимости от Российской империи и, что экономическая политика царизма преследовала исключительно свои интересы, в XIX и начале XX в. в нашей стране появились и стали развиваться капиталистические отношения.

**G.M.Pashayev**

## Russia and development of economy of Azerbaijan in the second half of $19^{th}$ and early $20^{th}$ Century

## SUMMARY

Introduction emphasizes scientific topicality of the subject and the importance of studying it for the history of the motherland. It features a chronological table, goal and tasks of the study. Introduction provides an insight into the situation with the study of the work, gives comments on accomplishments and shortcomings, characterizes the main sources, and stresses the significance of methodological fundamentals of the work, and underlines its main research innovations, theoretical and practical importance.

The first chapter analyses the changes that took place in the Northern Azerbaijan`s agricultural sector influenced by the Russian Empire in the 19th

and early 20th centuries. It studies the consequences of the introduction of the Tsarism`s agrarian laws, the spread of improved cultivation tools and advanced agro-technical rules, the expansion of commercial cultivation, the launch of cultivation of technical plants, including cottonand tobacco, measures taken by government representatives to develop sericulture, innovations in cattle breeding, particularly the role of Russian villagers in breeding fine-wool sheep.

The second chapter highlights the activity of the Russian government in the establishment and development of the mining industry. It notes that rapid development of the oil industry and related sectors was possible thanks to the measures taken by Tsarism with the aim of satisfying Central Russia`s growing demand for oil products, as well as thanks to entrepreneurship activities of Russian industrialists. The third chapter studies the role of representatives of the Russian government and Russian industrialists in the emergence and development of light and food industry. It determines the extent of the participation of Russian capital in the activity of silk processing, cotton cleaning, fish processing enterprises, and wine and other alcoholic drinks producing factories.

Summary features main conclusions of the research. It notes that although Northern Azerbaijan was a colony of the Russian empire and despite the fact that Tsarism`s economic policy pursued exclusively its own interests, capitalism relations emerged and started to develop in our country in the 19 th and early 20 th century.

Kağız formatı 60x84, 1/16

Fiziki çap vərəqi 1,9

Tiraj 100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

***На правах рукописи***

**ГУСЕЙН МАМЕД оглу ПАШАЕВ**

# РОССИЯ И РАЗВИТИЕ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX И НАЧАЛЕ XX в.

**Специальность: 5503.02. – История Отечества**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2015**